# Səlim Babullaoğlunun M.Eminesku ilə bağlı məqaləsi Rumıniyada nəşr olundu




**Rumıniya Yazıçılar Liqası və Rumıniya Peşəkar Jurnalistlər Birliyi himayəsi altında nəşr olunan "Constelatii diamantine" mədəniyyət jurnalının Mihay Emineskuya həsr olunmuş xüsusi sayı nəşr olunub. Nəşrdə görkəmli rumın ədib və alimləri, publisistlər - İon Deakonescu, George Duka, Doina Dragut, Mihay Fırıka, Razvan Lupu, Mirçi Pospay, Larisa Qaramurov, Yonut Adrian Patularu, Dan İonesku, Dan Lupesku, Ana Adriana Mani, İtaliyadan Cinzia Demi, Serbiyadan Nicu Ciobanunun yazıları, eləcə də Səlim Babullaoğlunun "Rumın ədəbiyyatı və Mihay Emineskunun poeziyası Azərbaycan dilində" adlı monoqrafik məqaləsi də dərc edilib.**

**Elə şənbələr vardı ki, gün ərzində üç dəfə baş çəkirdim kitabxanaya. 30-40 səhifəlik kitabları bir-iki saata oxuyub geri qaytarır, təzəsini götürürdüm. Amma rumın nağılları ilə vəziyyət başqa cür olmuşdu. Kitab qalındı və mən həmin kitabdan, nağıllardan haradasa, bir həftə-on gün ayrılmadım.**